# Sənətinin vurğunu

Rəfail Bayramov şərəfli sənət sahibi - həkimdir. Öz sənətinin vurğunudur. Şəfalı əlləri ilə insanlara həyat verir, çalışır ki, xəstəlikdən əziyyət çəkən adamlara vaxtında lazımi tibbi xidməti göstərsin, ailələrinə sevinc payı bəxş etsin.

Rəfail həkim hazırda Bakının Nərimanov rayonunun 8 saylı poliklinikasında çalışır, ixtisasca uroloqdur. Vurğulamaq lazımdır ki, haqqında söhbət apardığımız səhiyyə fədaisi öz peşəsində püxtələşmiş, insanların gözündə pillə-pillə ucalmış, xeyirxah işi ilə özünə şan-şərəf hyekəli ucaltmışdır.

Hər gün poliklinikada onlarca xəstə Rəfail həkimin növbəsində dayanır. Hamı müalicə olmağına ümidlə gəlir. Bilirlər ki, uroloji xəstəliklə bağlı təcrübəli həkim Rəfail Bayramov onlara lazımi tibbi xidməti göstərəcək, bir sözlə, müayinə və müalicə yüksək səviyyədə aparılacaqdır.

Rəfail həkimi insanlara sevdirən müsbət cəhətlərindən biri də odur ki,



xəstələrin səhhəti qaydaya düşdükdən sonra uzun müddət zəng vurub onlarla əlaqə saxlayır, insanlara yaşamaq ümidi bəxş edir. Məsləhət görür ki, mütəmadi olaraq həkim müayinəsindən keçsinlər, sağlamlıqlarını qoruyub saxlasınlar.

R.Bayramovun səhiyyə sahəsindəki xidmətləri həmişə mükafatlandırılmış, diplom və hədiyyələrə layiq görülmüşdür.

Ömür keşikçisi Nərimanov rayonunun ərazisində məskunlaşan qaçqın və məcburi köçgünləri, müharibə və əmək veteranlarına həmişə qayğı göstərir.

Bu günlərdə Rəfail həkimin 60 yaşı tamam olacaqdır. Məhz Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə, uzun illər əhalinin sağlamlığının qorunması istiqamətində səmərəli fəaliyyətinə, həmçinin Nərimanov rayonunun ictimai-siyasi həyatında fəal iştirakına görə Rəfail həkim Nərimanov Rayon İcra Hakimiyyətinin fəxri fərmanına layiq görülmüşdür.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində fəxri fərman yubilyara rayon icra hakimiyyəti başçısının birinci müavini Şahmar İbadov tərəfindən təqdim olundu.

**Qədir ASLAN,**
**"Respublika".**